WWW.KASPI.AZ 5 dekabr 2015

# Zemfira Məhərrəmlinin 60 illik yubileyi keçirildi




**4 dekabrda Beynəlxalq Mətbuat Mərkəzində (BMM) Zemfira Məhərrəmlinin 60 illik yubileyi keçirildi. Tədbiri giriş sözü ilə açan Mətbuat Şurasının sədri Əflatun Amaşov, Zemfira Məhərrəmlini 60 illik yubileyi münasibətilə təbrik edərək, onun "Oyuncaq" və "Ömür bitər, yollar bitməz" adlı kitablarını jurnalistlərə təqdim etdi. "Oyuncaq" kitabı müəllifin bədii düşüncələrindən doğan təsvirlər toplusu, "Ömür bitər, yollar bitməz" kitabı isə xarici ölkələrdəki səfər xatirələri və publisistik araşdırmalarından ibarətdir.**

Ə.Amaşov çıxışında müəllifin ömür yoluna da işıq tutdu: "Mən Zemfira xanımı hələ o, "Bakı-Baku" qəzetində jurnalist kimi fəaliyyət göstərərkən tanımışam. Zemfira xanım elm, təhsil, mədəniyyətlə bağlı mövzularla mütəmadi olaraq həmin qəzetdə çıxışlar edirdi. Zemfira Məhərrəmli jurnalitikada Nəsir İmanquliyev məktəbinin nümayəndələrindəndir. Hələ o, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirərkən Nəsir İmanquliyev onu "Bakı-Baku" qəzetində işləməyə dəvət etdi. Qarabağ savaşı başladığı zaman Zemfira xanım elmi-pedaqoji fəaliyyətini dondurub, birbaşa cəbhəyə yollandı. O, cəbhə bölgəsində vuruşan əsgərlərlə bağlı ardıcıl reportajlar hazırlayırdı. Onun "Döyüşə qızlar gedir" adlı ilk kitabı 1997-ci ildə çap olunmuşdu. Bu kitab, Qarabağ savaşı ilə əlaqədar olduğundan qardaş ölkə Türkiyədə də maraqla qarşılanmışdır. Zemfira xanımın sonuncu kitablarından biri də ingilis dilində çap olunub. Həmçinin bu kitabda da Azərbaycan qızlarının şücaətindən bəhs edilir. Hazırda Zemfira xanım Ombudsman Aparatının Mətbuat Xidmətinin rəhbəri kimi uğurlu fəaliyyət göstərir".

Daha sonra tədbirdə söz alan **Ahıl Jurnalistlər Birliyinin sədri, yazıçı, publisist Yusif Kərimov** Zemfira Məhərrəmlini rəhbəri olduğu qurumun üzvü olması münasibətilə təbrik etdi və onun yaxşı yazıçı olduğunu da vurğuladı: "Həmişə demişəm ki, jurnalistlərdən yazıçı ola bilməz. Çünki jurnalistikada olan dəqiqlik ədəbiyyata quruluq gətirir və oxucunu darıxdırır. Fikrimcə, jurnalist olmaq yazıçı olmaqdan çox çətindir və hər kəs bu keyfiyyətlərə malik ola bilmir. Zemfira xanım o jurnalistlərdəndir ki, bunların hər ikisinin öhdəsindən gələ bilib. Onun "Oyuncaq" kitabını oxuduqdan sonra mən bir daha fikirlərimin doğru olduğu qənaətinə gəldim".

Tədbirdə çıxış edən **"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı** rəhbəri olduğu qəzetin əməkdaşları adından Zemfira xanımı 60 illik yubileyi münasibətilə təbrik etdi. "Zemfira xanım o jurnalistlərdəndir ki, hazırda gənc jurnalistlər tərəfindən ona həm də media eksperti kimi müraciət olunur. Çalışdığı Ombudsman Aparatının mətbuat xidmətində Zemfira xanım digərlərinə sözün yaxşı mənasında nümunədir. Onun sözə bağlılığı, peşə biliklərinə sadiqliyi Azərbaycanın klassik jurnalistika ənənələrindən qaynaqlanır. O, bu ənənələri müasir jurnalistika ilə sintez edərək yeni nəsil jurnalistlərə bu sənətin sirlərini öyrədir".

Daha sonra tədbirdə çıxış edən Fazil Güney, Salatın Əhmədli, Roza Əliqızı, Tahir Aydınoğlu, Vahid Məhərrəmli, Ənvər Məşədioğlu kimi tanınmış publisist və yazarlar Zemfira Məhərrəmli haqqında öz xatirələrini bölüşərək, ona bundan sonrakı fəliyyətində uğurlar arzuladılar.

Tədbirin sonunda Zemfira Məhərrəmli gələn qonaqlara öz minnətdarlığını bildirdi.

**Şəbnəm Mehdizadə**